**Əlavə 2**

# DOKTORANTLARIN VƏ GƏNC TƏDQİQATÇILARIN XXVIII RESPUBLİKA ELMİ KONFRANSININ (NASCO XXVIII) ƏSASNAMƏSİ

## 1. Ümumi müddəalar

**1.1.** Doktorantların və gənc tədqiqatçıların XXIX Respublika elmi konfransı (bundan sonra – *Konfrans*) gənclərin elmi yaradıcılığa fəal cəlb edilməsi, eləcə də onların apardıqları elmi tədqiqatların nəticələrinin müzakirəsinin təşkili məqsədilə keçirilir.

**1.2.** Konfrans aşağıdakı elmi istiqamətləri əhatə edir:
**1.2.1.** Təbiət elmləri (kimya, fizika, biologiya, geologiya, coğrafiya, enerji resursları və s.);
**1.2.2.** Mühəndislik elmləri (mexanika, elektrik və elektronika, robototexnika, avtomatlaşdırma, inşaat mühəndisliyi, maşınqayırma, neft-kimya və s.);
**1.2.3.** Riyaziyyat və informasiya-kommunikasiya texnologiyaları (süni intellekt, kibertəhlükəsizlik, informasiya texnologiyaları, data analitikası, kompüter elmləri və s.);
**1.2.4.** İctimai sağlamlıq və tibb elmləri (tibb, biotexnologiya, sosiologiya, psixologiya, ətraf mühit və s.);
**1.2.5.** Sosial və humanitar elmlər (tarix, arxeologiya və etnoqrafiya, antropologiya, fəlsəfə, hüquq, politologiya, kulturologiya, jurnalistika, metodika, ədəbiyyatşünaslıq, dilçilik, pedaqogika və s.);
**1.2.6.** İqtisadi və idarəetmə elmləri (iqtisadiyyat, maliyyə, statistika, ekonometrika, turizm, menecment və s.).

**1.3.** Konfransın təşkili məqsədilə Elm və Təhsil Nazirliyi tərəfindən Təşkilat Komitəsi yaradılır. Komitənin tərkibinə sədr, sədr müavini, elmi katib və digər üzvlər daxildir.

## 2. Konfrans müraciət prosesi

**2.1.** Konfransın qaydalarında və əsas tarixlərində ediləcək hər hansı dəyişikliklər Təşkilat komitəsi tərəfindən müəyyən olunur və elan edilir.

**2.2.** Konfransa təqdim ediləcək məqalə və tezislər Naxçıvan Dövlət Universitetinin rəsmi internet səhifəsində yerləşdirilmiş konfrans platforması vasitəsilə (https://konfrans.ndu.edu.az/) elektron qaydada göndərilməlidir.

**2.3.** Təqdim olunmuş müraciətlər ilkin mərhələdə Təşkilat Komitəsi tərəfindən bu sənədin 3, 4 və 5-ci bölmələrində göstərilən tələblərə uyğunluq baxımından yoxlanılır. Tələblərə cavab verən elmi işlər Konfransın Elmi Komitəsi tərəfindən qapalı (rəyçi anonimliyi qorunmaqla) dəyərləndirmə sisteminə təqdim edilir.

Qiymətləndirmə nəticəsində müraciətlərə aşağıdakı qərarlardan biri verilir:

- **“Qəbul”** – məqalə və tezis nəşr üçün uyğundur;
- **“Düzəliş”** – məqalədə və tezisdə məzmun və ya texniki baxımdan düzəlişlər tələb olunur;
- **“İmtina”** – məqalə və tezis konfransın tələblərinə cavab vermir.

Qəbul və ya digər qərarlar elan olunmuş tarixədək müəlliflərə bildirilir. “Düzəliş” qərarı verilmiş elmi işlərin müəlliflərinə düzəlişlərin aparılması üçün 1 (bir) həftə müddət verilir. Müəlliflər düzəliş edilmiş variantı göstərilən müddət ərzində yenidən təqdim etməlidirlər.

Müəyyən olunmuş müddət ərzində düzəlişlər təqdim edilmədiyi halda müraciətə “İmtina” qərarı veriləcəkdir. Qeyd olunur ki, müəlliflərə düzəliş üçün yalnız bir dəfə imkan yaradılır. Düzəliş edilmiş məqalə və tezislər Elmi Komitə tərəfindən yenidən qiymətləndirilir və rəy nəzərə alındığı təqdirdə “Qəbul”, əks halda “İmtina” qərarı verilir.

## 3. Konfrans iştirakçıları

**3.1.** Konfransda təşkilati-hüquqi formasından asılı olmayaraq aşağıdakı şəxslər iştirak edə bilərlər:
**3.1.1.** Azərbaycan Respublikasının vətəndaşı olub ölkə daxilində və ya xaricdə fəaliyyət göstərən ali təhsil və ya elmi müəssisələrin tədqiqat institutlarında fəlsəfə doktoru proqramı üzrə təhsil alan doktorant və ya dissertantlar;
**3.1.2.** Azərbaycan Respublikasında yerləşən ali təhsil və ya elmi müəssisələrin tədqiqat institutlarında fəlsəfə doktoru proqramı üzrə təhsil alan əcnəbi doktorant və ya dissertantlar;
**3.1.3.** Yaşı 35-dən yuxarı olmayan və elmi dərəcəyə malik olan şəxslər.

**3.2.** Məqalə və tezislər və tələb olunan digər sənədlər Naxçıvan Dövlət Universitetinin rəsmi internet səhifəsində yerləşdirilmiş konfrans platforması (https://konfrans.ndu.edu.az/) vasitəsilə, müraciət zamanı müəyyən edilmiş formada təqdim edilməlidir.

## 4. Məqalə və tezislərin tərtib olunma qaydaları

4.1. Məqalələrdə tədqiqat probleminin aktuallığı əsaslandırılmalı, müəllif tərəfindən aparılmış elmi araşdırmanın nəticələri əks etdirilməli və əldə olunan nəticələrin tətbiqi ilə bağlı konkret təkliflər irəli sürülməlidir. Məqalələrin seçimində yaradıcılıq qabiliyyəti, elmi yenilik və əsaslandırılmış ideyalar üstünlük təşkil edir.

**4.2.** Məqalələrin tərtibatına dair tələblər:

**4.2.1.** Məqalələr Azərbaycan, rus və ingilis dillərində qəbul edilir. Beynəlxalq elmi jurnallarda nəşr üçün nəzərdə tutulan məqalələr yalnız ingilis dilində təqdim olunmalıdır.

**4.2.2.** Məqalələr empirik və ya nəzəri tədqiqat metodlarına əsaslanmalı, aktual elmi problemləri əhatə etməli və əvvəllər nəşr olunmamış olmalıdır.

**4.2.3.** Elmi və metodoloji baxımdan yüksək qiymətləndirilən məqalələrin beynəlxalq indekslənən (SCOPUS, Web of Science və s.) jurnallarda nəşri üçün tövsiyə verilməsi mümkündür.

**4.2.4.** Məqalələr ".doc" və ya ".docx" formatında hazırlanmalı, səhifə parametrləri aşağıdakı kimi tənzimlənməlidir: sol – 2,5 sm, sağ – 1,5 sm, yuxarı və aşağı – 2,0 sm.

**4.2.5.** Məqalənin həcmi (əlavələr istisna olmaqla) 8–15 səhifə arasında olmalı və aşağıdakı struktur elementləri əhatə etməlidir:

- xülasə (abstract)
- açar sözlər (keywords)
- giriş (introduction)
- ədəbiyyat icmalı / nəzəri çərçivə (literature review / theoretical framework)
- metodologiya (methodology)
- nəticələr (results)
- müzakirə və təkliflər (discussion and recommendations)
- istifadə olunmuş ədəbiyyat (references)

**4.2.6.** Məqaləyə xülasə əlavə olunmalıdır. Azərbaycan dilində hazırlanmış məqalələr üçün xülasə ingilis dilində, ingilis və rus dilində hazırlanmış məqalələr üçün isə xülasə Azərbaycan dilində təqdim edilməlidir.

**4.2.7.** Konfransa yalnız xülasə təqdim edildiyi hallarda xülasədə mövzunun adı, müəllifin adı və soyadı, aid olduğu qurum (affiliation), xülasə mətni və açar sözlər göstərilməlidir. Xülasənin həcmi 250–500 söz arasında olmalıdır.

**4.2.8.** Məqalənin və ya tezisin başlığı qısa, aydın və informativ olmalı, maksimum 10-12 sözdən ibarət olmalıdır. Başlıq Times New Roman şriftində, 14 pt ölçüdə, qalın (bold), böyük hərflərlə və mərkəzdən düzləndirilmiş formada yazılmalıdır.

Başlığın altında müəllifin (və ya müəlliflərin) adı və soyadı, mənsub olduğu qurum (affiliation), ORCID identifikatoru və korporativ elektron poçt ünvanı göstərilməlidir.

Məqalədəki xülasə (abstrakt) 150–250 söz həcmində olmalı, Times New Roman şriftində, 10 pt ölçüdə, 1,15 sətiraralığı ilə və iki yana düzləndirilmiş (justified) formada təqdim edilməlidir.

**4.2.9.** Məqalənin əsas mətni Times New Roman, 12 pt şriftlə, 1,15 sətiraralığı ilə, iki yana düzləndirilmiş (justified) formada tərtib edilməli, paraqraf aralıqları 0 pt olmalıdır.

**4.2.10.** Cədvəl, şəkil və qrafiklər nömrələnməli, başlıqları qısa və informativ olmalı, Times New Roman 10 pt şriftlə verilməlidir. Hər bir vizual element mətn daxilində müvafiq şəkildə istinad olunmalıdır (məs., "Cədvəl 1", "Şəkil 2").

**4.2.11.** Məqalədə istinadlar və ədəbiyyat siyahısı APA (7-ci nəşr) standartına uyğun tərtib olunmalıdır.

- Mətn daxilində istinadlar müəllifin soyadı və nəşr ili ilə göstərilir *(Müəllif, il)*;
- Bütün istinadlar ədəbiyyat siyahısında tam şəkildə əks olunmalıdır;
- İstinad verilməyən mənbələr ədəbiyyat siyahısına daxil edilməməlidir;
- ədəbiyyat siyahısı əlifba sırası ilə tərtib olunmalıdır.

**4.3.1.** Məqalədə istifadə olunmuş elmi ədəbiyyata istinadlar və mənbələr aşağıdakı qaydada göstərilməlidir:

**4.3.1.1. İstinadların verilməsinə dair nümunələr:**

- Tək müəllifli mənbələrə istinad zamanı: *(Məmmədov, 2007)*, *(Pretty, 1994)*;
- İki müəllifli mənbələrə istinad zamanı: *(Əliyev və Osmanov, 2014)*, *(Krugman & Stiglitz, 2010)*;
- Üç və daha çox müəllifli mənbələrə istinad zamanı: *(Babayev və b., 2006; Kernis et al., 1993)*;
- Əgər istinad olunan mənbə təşkilat və ya dövlət qurumuna məxsusdursa, ilk istinadda tam adı göstərilir, sonrakı istinadlarda isə geniş tanınan hallarda qısaldılmış formadan istifadə edilə bilər:
    - ilk istinad: *(Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2014)*;
    - sonrakı istinad: *(ARDSK, 2014)*;
- Mətn daxilində eyni anda bir neçə mənbəyə istinad verildikdə, onlar əlifba sırası ilə düzülməli və nöqtəli vergül (;) ilə ayrılmalıdır:
  *(Akar, 2010; Çalışkan, 2008; Dinçer və Kolaşin, 2009; Engin və Demir, 2009; Tunç, 2007)*.

**4.3.1.2. İstifadə olunmuş ədəbiyyat siyahısının tərtibinə dair nümunələr (APA üslubunda):**

- **Jurnal məqaləsi:**
  Bandura, A. (1977). Self-efficacy: Toward a unifying theory of behavioral change. *Psychological Review, 84*(2), 191–215.
- **Kitab:**
  Krugman, P. R. (2009). *The return of depression economics and the crisis of 2008*. W. W. Norton & Company.
- **Rəsmi hesabat:**
  World Health Organization. (2020). *Global health estimates 2019*. WHO.
- **Konfrans materialı:**
  LeCun, Y., Bengio, Y., & Hinton, G. (2015). Deep learning. In *Proceedings of the IEEE Conference on Artificial Intelligence* (pp. 436–444).

- **Dərslik:**
  Çengel, Y. A., & Boles, M. A. (2015). *Thermodynamics: An engineering approach* (8th ed.). McGraw-Hill.

## 5. Plagiat

5.1. Təqdim olunan bütün məqalə və tezislər plagiat yoxlanışından keçirilir.

5.2. Ümumi oxşarlıq göstəricisi 15 %-dən artıq olan və ya akademik etikaya zidd hallar aşkar edilən məqalələr qəbul edilmir.

## 6. Konfransın gedişi

6.1. Konfransın işi elmi istiqamətlər üzrə bölmələrdə təşkil olunur. Hər bir bölməyə sədr və həmsədrlər rəhbərlik edirlər.

6.2. Məruzəçilər çıxışlarını müvafiq bölmələrdə təqdim edirlər. Hər bir məruzə üçün ümumilikdə 10 dəqiqə vaxt ayrılır ki, bunun 8 dəqiqəsi çıxışa, 2 dəqiqəsi isə sual-cavab hissəsinə nəzərdə tutulur.

6.3. Məruzələr təqdimat (ppt, pptx formatında) vasitəsilə təqdim olunmalıdır. Təqdimatın ilk slaydında mövzunun adı, məruzəçinin adı və soyadı göstərilməlidir. Təqdimatda tədqiqatın məqsədi və predmeti aydın şəkildə ifadə olunmalı, mətn qısa və anlaşıqlı formada təqdim edilməlidir. Əlavə izahlar şifahi şəkildə verilməlidir. Təqdimatda istifadə olunan şəkil, video və digər vizual materiallar mövzu ilə uyğunluq təşkil etməlidir. Sonda əsas nəticələr və yekun fikirlər ümumiləşdirilmiş şəkildə təqdim olunmalıdır.

6.4. Məruzələr üz-üzə formatda təqdim olunur. Məruzəçilərin çıxış edəcəkləri bölmə iclasında əvvəldən sona qədər iştirak etmələri məcburidir.

6.5. Konfransın işçi dilləri Azərbaycan, rus və ingilis dilləridir.

## 7. Konfransın yekunu

**7.1.** Konfrans çərçivəsində məruzə olunması təsdiqlənmiş və konfrans proqramına daxil edilmiş məqalələr yalnız müəllif (və ya müəlliflər) tərəfindən üz-üzə formada təqdim edildikdən sonra nəşr oluna bilər.

**7.2.** Qəbul edilmiş məqalələr “Konfrans materialları” toplusunda dərc edilir.

**7.3.** İngilis dilində təqdim olunmuş və elmi keyfiyyət göstəricilərinə görə yüksək qiymətləndirilmiş məqalələr beynəlxalq elmi jurnallarda, o cümlədən SCOPUS və Web of Science (WoS) bazalarında indekslənən impakt faktorlu nəşrlərdə dərc olunmaq üçün seçilə bilər.